# NƏTİCƏLƏRƏ DAİR BÜLLETEN

## Regional Layihə: CyberEast (KiberŞərq) - Şərq Tərəfdaşlığı Regionunda Kiber Dayanıqlığa nail olmaq üçün Kibercinayətkarlığa qarşı Fəaliyyət (iyun 2019 - iyun 2022)

*KiberŞərq layihəsi Şərq Tərəfdaşlığı ölkələrinin hökumət orqanlarını* ***siyasət və qanunvericiliyin*** *Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyasına uyğun olaraq işlənib hazırlanmasında,* ***müstəntiqlərin, prokurorların və hakimlərin*** *kibercinayətkarlıq və elektron dəlillərlə bağlı* ***bacarıqlarının*** *gücləndirilməsində və* ***qurumlararası, beynəlxalq*** *və* ***dövlət-özəl sektor əməkdaşlığının*** *inkişafına töhfə vermək istiqamətində dəstəkləyir****.***

- Başlanğıc mərhələnin tərkib hissəsi olaraq, Azərbaycanda **kibercinayətkarlıq və elektron dəlillərlə iş üzrə təlim ehtiyacları və imkanlar** milli həmkarlar ilə keçirilmiş bir sıra görüşlər yolu ilə qiymətləndirilmiş və regional hesabatda ümumiləşdirilmişdir.
- ATƏT ilə birgə səylərin tərkib hissəsi olaraq, layihə çərçivəsində Bakıda hüquq mühafizə orqanları - İnternet xidmət provayderləri arasında əməkdaşlığa dair keçirilən seminarda **dövlət və özəl sektor arasında əməkdaşlığın** ən son aspektlərinə toxunulmuşdur.
- Ölkə komandasının üzvləri xarici xidmət provayderləri ilə əməkdaşlıq üzrə beynəlxalq iclasda iştirak etmişlər, bu isə tədbir zamanı təmsil olunan bütün bölgələrdəki **dövlət-özəl sektor əməkdaşlığı** üzrə təcrübə barədə açıq müzakirəyə kömək etmişdir.
- COVID-19 məhdudiyyətləri zamanında, Azərbaycan nümayəndələri seçkilərə müdaxilə, Kompyuter Təhlükəsizliyi İnsidenti üzrə Operativ Komandalarla əməkdaşlıq və kiber zorakılıq kimi **kibercinayətkarlıqla mübarizə üzrə əməkdaşlıq** ilə bağlı aktual məsələlərin həlli istiqamətində təşkil olunan bir sıra onlayn seminarlarda iştirak etmişlər.
- COVID-19 məhdudiyyətləri zamanında, Azərbaycanın milli hökumət orqanları məlumatların qorunması, hüquq-mühafizə orqanları/xidmət provayderləri arasında əməkdaşlıq və məlumatların təhlükəsizliyinin təminatının aspektləri üzrə regional **masaüstü araşdırmalara** və sorğulara öz töhfələrini vermişlər.

Bu layihə barədə ümumi məlumat vərəqəsini layihənin veb-saytında əldə etmək mümkündür.

**More information:**
https://www.coe.int/en/web/cybercrime/cybercrime-office-c-proc-

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe